# "ISCC PLUS" SİYASƏTİ

Bu sənəd, **"ALCO" MMC-nin** fəaliyyətini "ISCC Plus" sertifikasiyasının, o cümlədən dayanıqlılıq standartlarının tələblərinə uğunlaşdırmaq məqsədi daşıyır.

Şirkətimiz ətraf mühitin qorunması və təchizat zəncirinin izlənə bilməsini artırmaq üçün effektiv strategiyalar və təkmil prosedurlar tətbiq edir.

"ISCC Plus" siyasəti dayanaqlılıq prinsiplərinin tətbiqi, enerji və su effektivliyinin artırılması, sosial məsuliyyətin gücləndirməsi və təchizat zəncirində şəffaflığın təmin edilməsi ilə bağlı əsas yanaşmalarımızı əks etdirir.

**Ekoloji dayanıqlıq**

- **Tullantıların idarə edilməsi:** Şirkətimiz tullantıları azaltmaq və təkrar emal oluna bilən materialların istifadəsini artırmaq üçün tullantıların idarə edilməsi ilə bağlı müvafiq proqramlar həyata keçirəcək. Tullantıların lazımi qaydada çeşidlənməsi və utilizasiyası üçün prosedurlar müəyyən olunacaq.

- **Enerji səmərliliyi:** Enerji sərfiyyatını izləmək və azaltmaq üçün enerjiyə qənaət edən avadanlıqlar istifadə olunacaq və müvafiq proseslər tətbiq olunacaq. Enerji qənaətini təmin etmək üçün mütəmadi olaraq enerji auditləri aparılacaq və enerji səmərəliliyini artıran layihələr təşviq ediləcək.

- **Su idarəçiliyi:** Su istehlakını azaltmaq və su ehtiyatlarını qorumaq üçün suyun səmərəliliyi strategiyaları həyata keçiriləcək. Sudan istifadəyə nəzarət etmək məqsədilə müvafiq sistemlər yaradılacaq və suya qənaət etmək üçün zəruri tədbirlər görüləcək.

- **Ətraf mühitə təsirin təhlili:** Məhsul və proseslərin ətraf mühitə təsiri müntəzəm olaraq təhlil ediləcək və ətraf mühitə mənfi təsirləri azaltmaq üçün təkmilləşdirmə tədbirləri həyata keçiriləcək.

**Sosial dayanıqlıq**

- **İşçilərin hüquqları və əməyin təhlükəsizliyi:** İşçilərin hüquqlarına hörmət olunacaq, təhlükəsiz iş mühitini formalaşdırmaq üçün zəruri hüquqi və etik standartlar tətbiq olunacaq.
  İstehsalatda bədbəxt hadisələrin qarşısını almaq üçün əməyin mühafizəsi ilə bağlı təlimlər keçiriləcək və risk qiymətləndirmələri aparılacaqdır.

- **Bərabərlik və inkluzivlik:** Şirkətimizdə heç bir ayrı-seçkiliyə yol verilməyəcək, işə qəbul, vəzifədə irəli çəkilmə və insan resurslarının idarə edilməsi ilə bağlı digər bütün proseslərdə hər kəsə bərabər imkanlar təmin olunacaq. İşçilərin müxtəlifliyinə önəm veriləcək və inklüziv iş mühiti yaradılacaq.

- **Sosial məsuliyyət:** İctimaiyyətlə əlaqələr çərçivəsində sosial məsuliyyət layihələri dəstəklənəcək və yerli icmalarla münasibətlər möhkəmləndiriləcək. Sosial təsirləri müsbət istiqamətdə yönləndirən layihələr hazırlanacaqdır.

**İqtisadi dayanıqlıq**

- **Səmərəlilik və innovasiya:** Biznes proseslərinin səmərəliliyini artırmaq və innovativ həlləri inkişaf etdirmək üçün davamlı təkmilləşdirmə və innovasiya strategiyaları həyata keçiriləcək. Biznes proseslərində xərclərin effektiv idarə olunması təmin ediləcək.

- **Uzunmüddətli planlaşdırma:** Şirkətin uzunmüddətli iqtisadi uğurunu dəstəkləmək üçün strateji planlaşdırma aparılacaq və dayanıqlı iş modelləri hazırlanacaq. İqtisadi dayanıqlıq risklərin idarə edilməsi və böhran vəziyyətlərinin planlaşdırılması vasitəsilə təmin ediləcək.

**Təchizatçıların seçimi və dəyərləndirilməsi**

- **Təchizatçı seçim meyarları:** Təchizatçıların seçimi "ISCC Plus" standartlarına uyğunluq, dayanıqlıq və ekoloji fəaliyyət meyarları əsasında aparılacaq. Uyğun təchizatçılarla əməkdaşlıq ediləcək və uyğun olmayan təchizatçılar üçün təkmilləşdirmə planları hazırlanacaqdır.

- **Performans dəyərləndirməsi:** Təchizatçıların fəaliyyəti müntəzəm olaraq yoxlanılacaq və qiymətləndiriləcək. Performans qiymətləndirmələri dayanıqlıq məqsədlərinə uyğunluq, keyfiyyət və çatdırılma müddətləri kimi göstəricilər əsasında aparılacaqdır.

**İzləmə prosedurları**

- **Təchizat zəncirinin izlənilməsi:** Təchizat zəncirində hər bir mərhələnin izlənilməsi təmin olunacaqdır. Məhsulların təchizat mənbələri və prosesləri haqqında qeydlər aparılacaq və onlar davamlı şəkildə yenilənəckdir.

- **Sertifikatlaşdırma və uyğunluq:** Təchizatçıların "ISCC Plus" sertifikatlarına malik olması təmin ediləcək və onların uyğunluğu mütəmadi olaraq yoxlanılacaqdır.
  Sertifikatlaşdırma sənədləri və uyğunluq hesabatları saxlanılacaq və ehtiyac olduqda yenilənəcəkdir.

**Təkmilləşdirmə və düzəldici fəaliyyətlər**

- **Düzəldici fəaliyyətlər:** Təchizat zəncirində aşkarlanan uyğunsuzluqlarla bağlı düzəldici fəaliyyətlər həyata keçiriləcək. Təchizatçılarla qarşılıqlı əməkdaşlıq şəraitində uyğunsuzluqlar aradan qaldırılacaq və gələcəkdə oxşar problemlərlə qarşılaşmamaq üçün müvafiq təklifləri hazırlanacaq.

- **Davamlı təkmilləşdirmə:** Təchizat zəncirində davamlılıq təcrübələrini davamlı olaraq təkmilləşdirmək üçün mütəmadi olaraq təhlillər aparılacaq və lazımi təkmilləşdirmə addımları atılacaqdır.

**Baş direktor**

Dunay XASAYLI

**Tarix:**

01.07.2024